# Milli dəyərlərimiz milli kimliyimizdir

## Milli dəyərlərə sahib olmaqla yanaşı, onları qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək də vacibdir




**Hər bir millətin mənsub olduğu tarixi-ənənəvi keyfiyyətlərin, sahib olduğu əvəzolunmaz xüsusiyyət və varlıqların məcmusu olan milli-mənəvi dəyərlər millətin mənəviyyatını birbaşa təcəssüm etdirir və onun milli kimliyi kimi çıxış edir. Milli-mənəvi dəyərlər hər bir milləti tanıtmaq üçün kifayət qədər yetərli dəlillərdir. Bu baxımdan adət-ənənələr, xalq yaradıcılığı, ədəbiyyat, dil, din və s. mənəvi dəyərlər məcmusuna daxildir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalq yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".**

Azərbaycan xalqının görkəmli ədibləri və zəngin ədəbiyyat nümunələri də xalqımızın milli dəyərlərini daha fəal surətdə qorumuş və əks etdirmişdir. Folklor nümunələri bu baxımdan çox səciyyəvidir. 4 misralıq bayatılarda, bir sətirlik atalar sözlərində və s. Azərbaycan xalqının müdrikliyi, malik olduğu minillik təcrübə özünü əks etdirmişdir. "Kitabi-Dədə Qorqud" dastanı milli dəyərlərin mühafizə və inikası baxımından ən zəngin kitab - ana abidə hesab olunur. Təsadüfi deyil ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanı haqqında deyirdi: **"Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. ...Bu, bizim ana kitabımızdır".** Bu mənada bizim ədəbiyyat nümunələrimizdə, görkəmli ədiblərimizin qələmə aldığı mükəmməl sənət incilərində bizim milli dəyərlərimiz, xüsusilə milli-mənəvi dəyərlərimiz mükəmməl təcəssümünü tapmışdır.

Xalqımız malik olduğu min illərlə ölçülən tarixə müqabil zəngin, çoxcəhətli maddi və mənəvi dəyərlərə də sahibdir. Bu dəyərlərin başında dəyərlər dəyəri ana dili gəlir. Çünki adi qaydada düşünmək lazımdır: dilsiz cəmiyyət və insanlıq olmadığı kimi, ana dili olmadan millət də yoxdur. Əgər özümlülük, millilik söhbət mövzusudursa, ana dili olmadan bunlara malik olmaq olmaz. Millət vətənsiz ola bilər, dövlətsiz ola bilər, hətta dövləti olmadığı üçün digər zəruri dəyərlərə sahib olmaya bilər, amma ana dili olmadan var olmaq olmaz. Ana dili yoxdursa, o millət də yoxdur. Ancaq bunlar bir yana, bizim xöşbəxtliyimizi təmin edən, min illərlə xalqımıza yoldaşlıq edən, onu mövcudlaşdıran ana dilimiz şirindən şirin, axıcı, ötkün, bütün fikirləri ifadə etməyə hər cür qüdrətli, yad dillərə qarşı mübariz, dəmir qanunlarla möhkəmlənmiş və mühafizəli, yad dillərə uyuşmaz, əyilməz, qarışmazdır. Laylalar qədər şirin, məlahətli, oxşamalar qədər ürəyə, ruha yatan, mahnılarımız qədər oynaq, şux, musiqili, atalar sözlərimiz qədər müdriklik ifadəçisi, ötkəm, hikmət dilidir. Öz ana dilində danışmayan və ya danşdığı da bir danışıq olmayan bir kəs, əslində, ana dilini yox, məhz özünü, öz mənliyini, kimliyini itirir. Bu baxımdan ulu öndərimizin dediyi bu sözlər hər bir Azərbaycan gənci, azərbaycanlı üçün proqramdır, vəzifədir, məqsəddir: **"Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. ...Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək: onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyatı olmayacaqdır. Ümidvaram ki, ...bizim gənclərimiz ...doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır".** Ancaq bununla bərabər, bütün bunların müqabilində ən qiymətli və əvəzedilməz digər milli dəyərlərimiz də var - dövlətçilik dəyərlərimiz. Çünki dünyada minlərlə xalq olduğu halda cəmi 200-ə yaxın xalqın dövlət qurmaq imkanı olub. Bu gün müstəqil dövlətimizin mövcudluğu xalqımızın min illərlə qurub-yaratdığı dövlətçilik ənənələrinin davamıdır ki, yeni minillikdə əvəzedilməz şəxsiyyət, ulu öndər Heydər Əliyevin sayəsində bunu bir daha əldə etməyə və yaşatmağa müvəffəq ola bilmişik. Buna görə də onlarla dövlət içərisində dövlətimiz, bayraqlar içərisində bayrağımız, ölkələr, ərazi vahidləri içərisində torpaqlarımız varkən onlara sahib olduğumuzla qürur duymaqla bərabər qorumaq vəzifəmiz də vardır. Bayrağımız, gerbimiz, himnimiz, ərazi bütövlüyümüz, sərhədlərimiz, ana dilimiz milli dəyərlərimizin baş tacıdır, əvəzedilməzdir. Bütün bunlar isə öz məzmunu, dəyəri, mənalılığı ilə VƏTƏN adına köçməklə qəlbimizdə, qürurumuzda, ləyaqət və qeyrətimizdə yaşayır. Bu dəyərlərimizdən hər hansı birinə bədxah, xor münasibət deyilən mənəvi duyğularımızın yoxluğu deməkdir. Necə ki ulu öndərimiz deyirdi ki: "Vətənpərvərlik hər bir insanın daxilindəki duyğularıdır. Əgər bunlar yoxdursa, deməli, o insan mənəviyyatsızdır".




**Xalqımız malik olduğu min illərlə ölçülən tarixə müqabil zəngin, çoxcəhətli maddi və mənəvi dəyərlərə də sahibdir. Bu dəyərlərin başında dəyərlər dəyəri ana dili gəlir. Çünki adi qaydada düşünmək lazımdır: dilsiz cəmiyyət və insanlıq olmadığı kimi, ana dili olmadan millət də yoxdur. Əgər özümlülük, millilik söhbət mövzusudursa, ana dili olmadan bunlara malik olmaq olmaz. Millət vətənsiz ola bilər, dövlətsiz ola bilər, hətta dövləti olmadığı üçün digər zəruri dəyərlərə sahib olmaya bilər, amma ana dili olmadan var olmaq olmaz. Ana dili yoxdursa, o millət də yoxdur.**

Bu mənada dalğalanan bayrağımızın əsintisində qürurumuz, qeyrətimiz, ləyaqət və şərəfimiz təcəssüm edir. Eləcə də səslənən himnimizdə, ağızlarda dilləri danışdıran ana dilimizdə, dövlətçiliyimizi əks etdirən gerbimizdə, vətənimizin sərhədlərində məhz bütün bu mənəvi keyfiyyətlərimiz yaşayır, deməli, biz yaşayırıq. Ulu öndərimiz deyirdi: **"Azərbaycan bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir... Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək ... hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq tək rəsmi yerlərdə yox, idarələrdə, küçələrdə, saraylarda, məktəblərdə yox, gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".** Bu mənada bu kimi dövlətçilik dəyərlərimiz təkcə bir simvol kimi, nişanə kimi yox, həm də mənəviyyatımız, vətəndaşlıq qeyrətimiz və milli ləyaqətimiz kimi bizimlə birgə olmalıdır. Bu baxımdan biz təkcə dövlətçilik rəmzləri olan bu dəyərləri qorumuş olmuruq, biz hər şeydən əvvəl ailə, insanlıq şərəfimizi, övladlarımızın gələcəyini, analarımızn namusunu, atalarımızın qeyrətini, qızlarımızın iffətini, oğullarımızın adını, bir sözlə - öz dəyərimizi, kimliyimizi qorumuş, hörmət etmiş, göz üstündə saxlamış oluruq.

Təkcə milli dəyərlərə sahib olmaq kifayət deyil. Həm də bu dəyərləri qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək xüsusilə əsasdır, vacibdir. Milli müstəqilliyimizin, dövlətçiliyimizin və ideologiyamızın banisi ulu öndər Heydər Əliyev necə ki: **"Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik",** - deyərək milli dəyərlərin yeni nəsillərə təbliği işini vəzifə olaraq müəyyənləşdirirdi. Bu mənada Naxçıvanda bu sahədə başladılan yol artıq zəngin və sabit bir ənənə təşkil etməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vaxtilə imzaladığı "Naxçıvanın tarixi abidələrinin pasportlaşdırılması", "Xalq yaradıcılığı günlərinin keçirilməsi" haqqında sərəncamlar bu ənənəni yaradan və milli dəyərləri araşdırmağa, öyrənməyə, qorumağa və təbliğ etməyə yönəlik yüz illiklərə hesablanmış tarixi əhəmiyyətli sənədlərdir.

Yeni nəsillər xalqımızın malik olduğu dəyərləri mənimsəmək üçün vətəndaşlıq vəzifəsi hiss etməlidir. Ulu öndərimiz öz şəxsiyyətində dəyərlərimizi o qədər əks etdirirdi ki, onu müşahidə edən hər bir kəs dərhal "Bax, bu azərbaycanlıdır" deyə bilirdi. Ümumiyyətlə, ümummilli liderimiz azərbaycanlılığın etalonu kimi hər bir azərbaycanlıya və Azərbaycan xalqının dəyərlərinə bir nümunə idi.

İndi yeni nəsillər milli dəyərlərin təbliği şəraitində aparılan işlər əhatəsində böyüyür, tərbiyə tapır. Deməli, dəyərlərimiz də yeni nəsillərə tərbiyə olunur, yaşayır və hifz edilir, gələcək nəsillərə ötürülür.

**Ramiz QASIMOV,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent,**
**AMEA Naxçıvan Bölməsinin**
**böyük elmi işçisi**

***Bu məqalə "Kaspi Geosiyasi Araşdırmalar Mərkəzi" İctimai Birliyinin AR Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi "Milli-mənəvi dəyərlərin, Azərbaycançılıq məfkurəsi və Azərbaycan dilinin qorunmasına dair təşəbbüslər" layihəsi çərçivəsində hazırlanıb.***